

*Damət SALMANOĞLU*

## ANA

Dünya başdan başa cənnətə dönsə,
O cənnəti görən gözümsən, ana.
Yorulub taqətdən düşdüyüm zaman,
Ürəyimdə təpər, dözümsən, ana.
***
Olmaz səndən uca qeyri dünyada,
Tapmaz səni danan xeyri dünyada.
Əzəldən kündəsi əyri dünyada,
Sən doğru yolumsan, izimsən, ana.
***
Gecələr çəkərdin çox keşiyimi,
Dilə gətirərdin lal beşiyimi.
Nəfəsin isidir ev-eşiyimi,
Sönməyən ocağım, közümsən, ana.
***
Sən nurlu gecəmsən, xoş sabahımsan,
Sən ümid yerimsən, sən pənahımsan,
Məkkəm, Mədinəmsən, qibləgahımsan,
Ən şirin söhbətim, sözümsən, ana...

## UNUDUM SƏNİ

Sildim  yaddaşımdan olub keçəni,
Daha istəyirəm unudum səni.
Elə unudum ki, ucuz olmasın,
Baha istəyirəm unudum səni.
***
Mənli xatirəni yığ dəstə-dəstə,
Ətrini qoxlayıb əzab çək, yaşa.
İçkiyə meyilli insanlar kimi,
Gözünün yaşından şərab çək, yaşa.
***
Getmisən, kimdəsə günah axtarma,
Özünün nəfsinə uyub getmisən.
Peşiman olsan da, çox gecdir artıq,
Sən, "getmə" sözümü duyub getmisən.
***
Dünən yaz günəşin, isti nəfəsin,
Ruhunu üşüdən sazağam indi.
Gerçək acılara yaxından yaxın,
Yalançı sevginə uzağam indi.
13.08.2022

## PAYIZ SEVGİ

Baxıram dənizə bu gün, bu səhər,
Dənizdən payızın qoxusu gəlir.
Ruhumu aparır ötən çağlara,
Sənli xatirəmin yuxusu gəlir..
***
Sıraya düzülüb xatirələrim,
Durna qatarıtək ötüşür sanki..
Səninlə yaşanıb xoş keçən anım,
Sənsiz köməyimə yetişir sanki...
***
Daha qınamıram payızı, qışı,
Demirəm dağlara nə tez çən gəlir.
Bir sevda yaşadım bir payız fəsli,
Hər payız gələndə mənə sən gəlir.
***
Qara saçlarıma dən düşsə belə,
Ötən hər bir anım gözləyir səni.
Mənim qəlbimdəki sevda havası,
Gələn günlərimə səsləyir səni..

## QOCALIQ

İstədim dünyada heç qocalmayım,
Arzumu yarıdan böldü qocalıq.
Dəvətsiz qonaqtək gənclik evimə,
Əlində əsayla gəldi qocalıq...
***
Gülü solmasa da, bağça-bağımın,
Başı qar olsa da sevgi dağımın,
Ömür təqviminidən bahar çağımın,
Sonuncu gününü sildi qocalıq.
***
Damətəm gəncliyim getmədi hədər,
Yad oldu ömrümə qüssə, qəm-kədər.
Yaşadı qəlbimdə gələnə qədər,
Gəldi gözlərimdə öldü qocalıq.
23.09.2022

## KÖVRƏLİRƏM MƏN

Son vaxtlar yamanca kövrək olmuşam,
Körpə uşaq kimi küsürəm hərdən.
Üşüyür köksümdə kövrək arzular,
Bahar ümidimi kəsirəm hərdən.
***
Təsəlli tapmıram verəm özümə,
Gör nələr yolladım ömür köçündə.
Getdi şeh ətirli, nurlu sabahlar,
Qalıb xəyallarım zülmət içində.
***
Hanı dünən mənə can söyləyənlər?
Qohumlar yad olub, dostlar yad olub.
Hara baxırsansa qoca dünyada,
İnsan var, insanlıq quru ad olub.
***
Dünya dəyişməyib, dərəsi dağı,
dənizi, meşəsi həməndir, həmən...
Ölən insanlığa baxıram hər gün,
Bəlkə, ona görə kövrəlirəm mən.
01.10.2022

## SƏN

Ay asılıb pəncərəmdən,
Göyün üzü olub dən-dən.
Ulduzların arasında,
Bir mən varam, birdə ki, sən..
***
Gələcəyə yol gedirik,
Ulduzları keçə-keçə.
İki canın bir qəlbiyik,
Asimanda biz bu gecə.
***
Mən sevginin asimanı,
Ulduzu sən, ayı sənsən.
Zülmət çökmüş gecələrin,
Nur adlanan payı sənsən.
***
Ay qəlbimin tək həmdəmi,
Eşiqimin ilki, əzəli.
Nə yaxşı ki, yazan yazıb,
Taleyimə sən gözəli.
***
Gözəlliyin qarşısında,
Mələklər də təzim edir.
Nə yaxşı ki, bu dünyada,
Yollarımız qoşa gedir.
20.10.2022

## UNUTMAQ İSTƏDİM

Unutmaq istədim səni,
Saçlarıma düşən dəndə.
Çilik-çilik arzularım
dedi: -Günah yoxdu səndə..
***
Səndən qalan xatirə də,
Yetim-yetim mənə baxır.
Yaşı donur gözlərində,
Kövrəldikcə məni sıxır.
***
Həsrətimlə qucaqlaşıb,
Hərdən həmsöhbət oluram.
Baş qoyanda dizlərimə,
Ətrini ondan alıram.
21.10.2022

## YAĞIŞ DAMCISI

Dənizin qoynunda sürünür bulud,
Deyəsən bu axşam yağış yağacaq.
Dalğalar əl açıb göylərə sarı,
Sanki yağış ilə qucaqlaşacaq...
***
Mənə bu mənzərə çox xatırladır,
Sənin saçlarına yağan yağışı.
Sənli xatirələr sənsiz bu axşam,
Yenə pıçıltıyla səndən danışır..
***
Bəlkə də, həsrətin göz yaşlarıdır,
Göylərdən süzülən yağış damcısı.
Əsən küləklər də təcəssümüdür,
Sənsiz günlərimin ağrı-acısı.
01.02.2023